№ 52-05/17 H
"08" May 2017-ci il

*Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına*

**2016-cı il üzrə**
**İLLİK HESABAT**

1. emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi: "Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyəti, "Meqa Sığorta" ASC; VÖEN 1400143091, 28.09.1998, 79-98/K;
2. emitentin hüquqi ünvanı və olduğu yer: AZ 1052, Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Rəcəbli prospekti 19;
3. emitentin adında dəyişiklik olmamışdır, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil olunmamışdır, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkili yolu ilə yaradılmamışdır;
4. Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş filialları: 2016-cı hesabat ili ərzində 1 (bir) filial yaradılmışdır.

| Adı | Vergidə qeydiyyat kodu | Ünvanı |
|---|---|---|
| "Meqa Sığorta" ASC Şimal filialı | 1400143091-45001 | AZ4001, Quba şəh., Heydər Əliyev Pro. |

5. emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş törəmə cəmiyyəti yoxdur;
6. emitent şirkətlər qrupunun bir hissəsi deyil;
7. emitentin məşğul olduğu fəaliyyət istiqamətləri: sığorta və təkrarsığorta fəaliyyəti;
8. emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri: sığorta fəaliyyəti – müddətsiz lisenziya, təkrarsığorta fəaliyyəti – müddətsiz lisenziya;
9. emitentin təklif etdiyi məhsullar və xidmətlər: 29 könüllü və 3 icbari sığorta növü üzrə sığorta və təkrarsığorta xidməti göstərir;

10. emitentin işçilərinin sayı və onun rüblük dinamikası: 121 nəfər, rüblük dinamika stabil olmuşdur;

11. emitentin idarəetmə orqanları haqqında məlumat:

a) Direktorlar Şurası: Sədr – Qurbanov Yaşar Feyzi oğlu
Üzv – Qarayev Hamlet Xosrov oğlu
Üzv – Verdiyev Anar Haqverdi oğlu

b) İdarə Heyəti (İcra orqanı): Sədr – Gülmaliyeva Sevinc Tofiq qızı
Üzv – Nəzərov Cəmil Məhəmməd oğlu
Üzv – İbrahimli Uğur Azad oğlu

c) Daxili Audit Xidmətinin (Audit Komitəsi) rəhbəri – Məmişov Hökmüdar Qələndər oğlu;

12. emitentin 6 (altı) səhmdarı (payçısı) var. Səhmdarların hamısı fiziki şəxslərdir.

13. emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan səhmdarlar:

| Səhmdarın adı | Adi, adlı sənədsiz səhmlərin sayı | Emitentin nizamnamə kapitalında payı (faizlə) |
|---|---|---|
| Əliyev Rauf Zeynal oğlu | 551 | 19% |
| Əliyev Zeynal Hacıməmməd oğlu | 551 | 19% |
| İsmayılova Nəzakət Zakir qızı | 551 | 19% |
| Quliyev Zaur Zakir oğlu | 551 | 19% |
| Qurbanov Yaşar Feyzi oğlu | 435 | 15% |
| İsmayılov Eldar Əli oğlu | 261 | 9% |
| **Cəmi** | 2900 | 100% |

14. emitentin nizamnamə kapitalında payı beş faizdən az olmayan hüquqi şəxs yoxdur;

15. emitentin səhmdarlarının (payçılarının) hesabat ili ərzində keçirilmiş yığıncaqları haqqında məlumat:

I. a) yığıncağın keçirilmə tarixi və yeri (ünvan);

17.03.2016-cı il Bakı şəhəri, Nərimanov rayonu, Ə.Rəcəbli pro. 19

b) ümumi yığıncaqda qəbul edilmiş qərarlar:

- "Meqa Sığorta" ASC-nin 2015-ci il üzrə maliyyə hesabatları, mühasibat balansı, mənfəət və zərər hesabları təsdiq olunsun.

- Cəmiyyətin işçiləri 100 (bir yüz) manat məbləğində Novruz bayramı münasibətilə mükafatlandırılsın və bu keçmiş illərin bölüşdürülməmiş mənfəəti hesabına ödənilsin.

II. a) yığıncağın keçirilmə tarixi və yeri (ünvan);

25.04.2016-cı il Bakı şəhəri, Nərimanov rayonu, Ə.Rəcəbli pro. 19

b) ümumi yığıncaqda qəbul edilmiş qərarlar:

- Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 10-q nömrəli qərarı ilə təsdiq edilmiş "Emitentin idarəetmə hesabatlarına dair tələblər haqqında Qaydalar"-ın tələblərinə uyğun olaraq tərtib edilmiş "Meqa Sığorta" ASC-nin illik hesabatı təsdiq edilsin.
- İllik hesabat təsdiq edildiyi tarixdən etibarən on gündən gec olmayaraq nəzarət orqanı – Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına təqdim edilsin.
- Qərarın icrası İdarə Heyətinin sədrinə həvalə edilsin.

III. a) yığıncağın keçirilmə tarixi və yeri (ünvan);

14.06.2016-cı il Bakı şəhəri, Nərimanov rayonu, Ə.Rəcəbli pro. 19

b) ümumi yığıncaqda qəbul edilmiş qərarlar:

- Meqa Sığorta" ASC-nin səhmdarlarının keçmiş illərin bölüşdürülməmiş mənfəətinin 2 000 000 (iki milyon) manat hissəsi cəmiyyətin səhmdarlarına dividend ödənilməsinə yönəldisin.
- Dividendlər səhmdarların cəmiyyətin nizamnamə kapitalındakı payına müvafiq formada proporsional bölünsün və qanunvericiliyə uyğun olaraq ödəmə mənbəyindən vergilər tutulduqdan sonra səhmdarlara ödənilsin.
- "Meqa Sığorta" ASC-nin Direktorlar Şurası səlahiyyət müddətinin bitdiyi sonuncu gün – 08.07.2016-cı il tarixdən aşağıdakı tərkibdə növbəti 3 il müddətinə seçilsin:

Sədr : Qurbanov Yaşar Feyzi oğlu

Üzv: Qarayev Hamlet Xosrov oğlu

Müstəqil üzv: Verdiyev Anar Haqverdi oğlu

IV. a) yığıncağın keçirilmə tarixi və yeri (ünvan);

30.12.2016-cı il Bakı şəhəri, Nərimanov rayonu, Ə.Rəcəbli pro. 19

b) ümumi yığıncaqda qəbul edilmiş qərarlar:

- "Meqa Sığorta" ASC-nin 2017-ci il üzrə büdcəsi təsdiq edilsin
- "Meqa Sığorta" ASC-nin 2016-cı il üzrə bölüşdürülməmiş mənfəətinin 3 faizi məbləğində istehlak fondu yaradılsın.
- Bu vəsait sosial vəziyyətin (kapital qoyuluşundan başqa) inkişafına yönəldilən tədbirlərin həyata keçirilməsinə və cəmiyyətin işçilərinin maddi həvəsləndirilməsinə, eləcə də bu kimi anoloji tədbirlərin həyata keçirilməsinə yönəldilsin.

16. emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışı haqqında məlumat:

16.1. investisiya qiymətli kağızın növü və forması: Adi, sənədsiz adlı səhm

16.2. investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi: AZ1001006183, 29 aprel 2015-ci il

16.3. investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri: 2 900 (iki min doqquz yüz) ədəd, 5 000 (beş min) manat

16.4. investisiya qiymətli kağız buraxılışının məcmu nominal dəyəri: 14 500 000 (on dörd milyon beş yüz min ) manat

16.5. hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə 2 000 000 (iki milyon) manat məbləğində dividend ödənilmişdir

16.6. hesabat ili ərzində emitent tərəfindən heç bir istiqraz buraxılmamışdır

16.7. investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının və olduğu yer: Bakı Fond Birjası QSC, Bakı şəhəri, Xətai rayonu, Babək pro., Ə.Quliyev 11/31;

17. emitent tərəfindən bağlanmış xüsusi əhəmiyyətli əqd yoxdur;

18. emitent tərəfindən aidiyyatı şəxslərlə bağlanılmış əqd yoxdur;

19. illik hesabatın təsdiq edildiyi Səhmdarların ümumi yığıncağının tarixi: 01.05.2017-ci il

20. İllik hesabatın açıqlanma mənbəyi haqqında məlumat: Emitentin rəsmi internet saytı - www.meqasigorta.az

**İdarə Heyətinin sədri:** **Gülmaliyeva S.T.**

**Baş mühasib:** **Rzayev G.S.**

# "MEQA Sığorta" ASC

31 dekabr 2016-cı il tarixində
bitən il üçün
Auditor rəyi və Maliyyə
HESABATLARI

"MEQA Sığorta" ASC
AUDİTOR RƏYİ VƏ MALİYYƏ HESABATLARI
31 DEKABR 2016

MÜNDƏRİCAT | SƏHİFƏ


| | |
|---|---|
| Rəhbərliyin məsuliyyətinin bəyanı | 1 |
| Auditor rəyi | 2 |
| Balans hesabatı | 3-4 |
| İştirakçı kapitalda dəyişikliklər hesabatı | 5 |
| Mənfəət və zərər hesabatı | 6 |
| Pul vəsaitlərinin hərəkəti hesabatı | 7 |
| Maliyyə hesabatları qeydləri | 8-16 |

SMART AUDIT

# AUDİTOR RƏYİ

**"MEQA SIĞORTA" ASC-nin Səhmdarına və İdarə Heyətinə:**

Biz "MEQA SIĞORTA" ASC-nin ("Şirkət") 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, eləcə də əsas uçot siyasəti və digər izahedici qeydlərdən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

**Maliyyə Hesabatlarının Hazırlanması üzrə Rəhbərliyin Məsuliyyəti**

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Milli Mühasibat Uçot Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, həmçinin fırıldaqçılıq və ya səhv üzündən əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin fikrincə zəruri olan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

**Auditorun Məsuliyyəti**

Bizim məsuliyyətimiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy bildirməkdir. Biz auditi Milli Mühasibat Uçot Standartlarına uyğun aparmışıq. Həmin Standartlar bizdən etik normalara riayət etməyi və və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, auditə mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot ehtimallarının əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

**Rəy**

Mən hesab edirəm ki, əldə etdiyim auditor sübutları rəy bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir. Mənim fikrimcə, 2016-cı il üzrə cəmiyyətin maliyyə (mühasibat) hesabatları milli mühasibat uçotuna uyğun olaraq düzgün və ədalətli təsəvvür yaradır.

Bakı, Azərbaycan
02.03.2017

SMART AUDİT
Emil Məmmədov
Lisenziya № 080834 ST/115

Address: [illegible] Globus Center 609 J. Jabbarl: str Baku, Azerbaijan AZ1065 Phone: +994 12 597 5515 / +994 12 597 5525 /
www.smartaudit.az email: office@smartaudit.az

## MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

**31 DEKABR 2016-CI İL TARİXDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**

Auditor hesabatının 2-ci səhifədə təqdim olunmuş auditor rəyində şərh edilən auditorların məsuliyyətinə uyğun oxunmalı olan bu hesabat "Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyətinin ("Cəmiyyət") maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik Cəmiyyətin 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyətini, əməliyyatlarının nəticələrini və həmin tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkətini, kapitalda dəyişikliklər hesabatını düzgün və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılar üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- BMHS-na uyğunluğun bəyan edilməsi və əgər bu standartdan əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi;
- Əgər yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə maliyyə hesabatlarını daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyətin daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması;
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2016-cı il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarının bəyan olunması 02 mart 2017-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiq olunmuşdur.

**İdarə Heyəti tərəfindən:**

**Sevinc Gülmalıyeva**
**İdarə Heyətinin sədri**

02 mart 2017-ci il
Bakı, Azərbaycan Respublikası

**Gündüz Rzayev**
**Baş mühasib**

02 mart 2017-ci il
Bakı, Azərbaycan Respublikası

**"Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyətinin**
**Mənfəət və zərər hesabatı**
31 dekabr 2016-cı il tarixində başa çatmış il üzrə
*(Azərbaycan manatı ilə)*

| | 31.12.2016 | 31.12.2015 |
|---|---|---|
| **Əsas əməliyyat gəlirləri** | 21 762 961,93 | 18 155 287,81 |
| Birbaşa sığorta üzrə sığorta haqqları | 20 154 078,68 | 17 770 521,19 |
| Təkrarsığorta üzrə təkrarsığorta haqları | 120 276,73 | 150 035,01 |
| Sığorta ödənişlərində təkrarsığortaçıların payı | 1 175 682,83 | 69 354,74 |
| Təkrarsığortaya verilmiş müqavilələr üzrə komisyon muzdlar | 312 923,69 | 165 376,87 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi** | **-1 379 981,44** | **-719 875,11** |
| **İnvestisiya gəlirləri** | **1 692 325,17** | **1 655 930,64** |
| **Subroqasiya gəlirləri** | **87 695,49** | **52 992,80** |
| **Sair gəlirlər** | **2 988 882,61** | **6 762 664,83** |
| **CƏMİ GƏLİRLƏR** | **25 151 883,76** | **25 907 000,97** |
| **Əsas əməliyyat xərcləri** | **14 217 595,73** | **10 902 688,14** |
| Verilmiş sığorta ödənişləri və sığorta məbləğləri | 4 174 388,96 | 2 307 122,76 |
| Qaytarılan sığorta haqları | 182 475,42 | 357 640,14 |
| Tənzimləmə xərcləri | | |
| Təkrarsığortaya verilmiş sığorta haqları | 9 860 731,35 | 8 237 925,24 |
| Qarşısıalınma tədbirləri fonduna ayırmalar | 0,00 | 0,00 |
| Sığorta fəaliyyəti üzrə sair xərclər | | |
| **İşlərin aparılması xərcləri** | **3 289 813,88** | **2 583 041,15** |
| **Sair xərclər** | **9 707,24** | **145 576,65** |
| **CƏMİ XƏRCLƏR** | **17 517 116,85** | **13 631 305,94** |
| **MALİYYƏ MƏNFƏƏTİ** | **7 634 766,91** | **12 275 695,03** |
| **Mənfəət vergisi xərci** | **1 526 953,38** | **2 455 139,01** |
| **Təxirə salınmış mənfəət vergisi xərci (gəliri)** | | |
| **HESABAT DÖVRÜNDƏ XALİS MƏNFƏƏT** | **6 107 813,53** | **9 820 556,02** |

**İdarə Heyəti tərəfindən:**

**Sevinc Gülmalıyeva**
**İdarə Heyətinin sədri**

2 mart 2017-ci il
Bakı, Azərbaycan Respublikası

MEQA SIĞORTA ASC · MEGA INSURANCE OJSC

**Gündüz Rzayev**
**Baş mühasib**

2 mart 2017-ci il
Bakı, Azərbaycan Respublikası

**"Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyətinin**
**Balans hesabatı**
31 dekabr 2016-cı il tarixində başa çatmış il üzrə
*(Azərbaycan manatı ilə)*

| | 31.12.2016 | 31.12.2015 |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| **UZUNMÜDDƏTLİ AKTİVLƏR:** | **8 534 727,62** | **2 403 720,39** |
| Torpaq, tikili və avadanlıqlar | 275 930,52 | 223 325,52 |
| Qeyri-maddi aktivlər | 252 997,89 | 280 129,65 |
| **Uzunmüddətli maliyyə aktivləri** | **4 837 374,20** | **1 900 265,22** |
| Dövlət qiymətli kağızları | 4 437 374,20 | 1 500 265,22 |
| Sair maliyyə aktivləri | 400 000,00 | 400 000,00 |
| **Sair aktivlər** | **3 168 425,01** | **0,00** |
| **QISA MÜDDƏTLİ AKTİVLƏR:** | **32 106 912,03** | **33 942 871,59** |
| Ehtiyatlar | 3 218,55 | 2 445,25 |
| **Debitor borclar** | **3 430 608,77** | **1 883 045,54** |
| Birbaşa sığorta üzrə | 2 184 741,69 | 1 354 122,33 |
| **Təkrarsığorta əməliyyatları üzrə** | **8 201,65** | **147 531,56** |
| Təkrarsığortaçı üzrə | 2 499,95 | 11 113,01 |
| Təkrarsığortalı üzrə | 5 701,70 | 136 418,55 |
| Büdcə üzrə | 688 199,64 | 0,00 |
| İddia tələbləri üzrə | 94 515,87 | 116 897,65 |
| Işçi heyəti üzrə | 327 276,45 | 181 778,38 |
| Sair debitorlar | 127 673,47 | 82 715,62 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **24 069 127,58** | **28 151 742,71** |
| Kassa | 23 537,18 | 19 050,17 |
| Hesablaşma hesabı | 289 664,91 | 303 942,09 |
| Valyuta hesabı | 543 384,99 | 4 287 230,45 |
| Depozit hesabı | 23 212 540,50 | 23 541 520,00 |
| **Qısamüddətli maliyyə aktivləri** | **0,00** | **0,00** |
| Dövlət qiymətli kağızları | 0,00 | 0,00 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı** | **4 494 905,91** | **3 833 255,24** |
| Həyat sığortası sahəsi üzrə | | |
| Qeyri həyat sığortası sahəsi üzrə | 4 494 905,91 | 3 833 255,24 |
| **Sair qısamüddətli aktivlər** | **109 051,22** | **72 382,85** |
| Gələcək hesabat dövrlərinin xərcləri | 74 849,66 | 38 877,29 |
| Verilmiş avanslar | 18 939,26 | 33 505,56 |
| Təhtəl hesablar | 15 262,30 | 0,00 |
| **Sair aktivlər** | | |
| **CƏMİ AKTİVLƏR** | **40 641 639,65** | **36 346 591,98** |

| | | |
|---|---|---|
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **KAPİTAL:** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **14 500 000,00** | **14 500 00,00** |
| Kapital ehtiyatları | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **13 835 808,50** | **9 785 805,83** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 6 107 813,53 | 9 820 556,02 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət | 7 727 994,97 | -34 750,19 |
| **Cəmi kapital** | **28 335 808,50** | **24 285 805,83** |
| **UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | **11 833 351,94** | **10 364 491,43** |
| **Sığorta ehtiyatları** | **11 511 753,50** | **9 470 121,39** |
| Həyat sığortası sahəsi üzrə | | |
| Qeyri-həyat sığortası üzrə | 11 511 753,50 | 9 470 121,39 |
| Qarşısıalınma tədbirləri fondu | **33 703,33** | **33 703,33** |
| Təxirə salınmış vergi öhdəlikləri | | |
| Kreditor borcları | | |
| **Sair uzunmüddətli öhdəliklər** | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər** | **287 895,11** | **860 666,71** |
| Təkrarsığortaçı üzrə | 286 963,30 | 860 355,20 |
| Təkrarsığortalı üzrə | 931,81 | 311,51 |
| **QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | **472 479,21** | **1 696 294,72** |
| **Kreditor borclar** | **377 923,34** | **1 569 623,47** |
| əməyin ödənişi üzrə | 0,00 | 87,40 |
| büdcə üzrə | 0,00 | 1 464 279,67 |
| sosial sığorta və təminat üzrə | 0,00 | 0,00 |
| digər məcburi ödənişlər üzrə | 29 542,37 | 21 918,89 |
| asılı təşkilatlarla | | |
| sair kreditorlar | 348 380,97 | 83 337,51 |
| **sair qısamüddətli öhdəliklər** | **94 555,87** | **126 671,25** |
| gələcək hesabat dövrünün gəlirləri | 94 555,87 | 126 671,25 |
| **sair öhdəliklər** | **0,00** | **0,00** |
| **Cəmi öhdəliklər** | **12 305831,15** | **12 060 786,15** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **40 641 639,65** | **36 346 591,98** |

**İdarə Heyəti tərəfindən:**

**Sevinc Gülmaliyeva**
**İdarə Heyətinin sədri**

02 mart 2017-ci il
Bakı, Azərbaycan Respublikası

**Gündüz Rzayev**
**Baş mühasib**

02 mart 2017-ci il
Bakı, Azərbaycan Respublikası

**"Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyətinin**
**Kapitalda dəyişikliklər haqqında hesabatı**
31 dekabr 2016-cı il tarixində başa çatmış il üzrə
*(Azərbaycan manatı ilə)*

| | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Kapital ehtiyatları | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2014-cü il tarixinə qalıq** | **12 000 000,00** | **2 780 562,16** | | **14 780 562,16** |
| Hesabat dövründə xalis mənfəət | | 9 820 556,02 | | 9 820 556,02 |
| Yenidənqiymətləndirmə üzrə ehtiyat | | | | |
| Yenidənqiymətləndirmə üzrə təxirə salınmış vergi öhdəliyi | | | | |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 2 500 000,00 | -2 500 000,00 | | |
| Mənfəətdən istifadə | | -72 312,35 | | -72 312,35 |
| Ödənilmiş dividend | | -243 000,00 | | -243 000,00 |
| Düzəlişlər (ilin əvvəlindən) | | | | |
| **31 dekabr 2015-ci il tarixinə qalıq** | **14 500 000,00** | **9 785 805,83** | | **24 285 805,83** |
| Hesabat dövründə xalis mənfəət | | 6 107 813,53 | | 6 107 813,53 |
| Yenidənqiymətləndirmə üzrə ehtiyat | | | | |
| Yenidənqiymətləndirmə üzrə təxirə salınmış vergi öhdəliyi | | | | |
| Cari ilin əvvəlindən (artma) | | | | |
| Mənfəətdən istifadə | | -95 810,86 | | -95 810,86 |
| Ödənilmiş dividend | | -1 962 000,00 | | -1 962 000,00 |
| Düzəlişlər (ilin əvvəlindən) | | | | |
| **31 dekabr 2016-cı il tarixinə qalıq** | **14 500 000,00** | **13 835 808,50** | | **28 335 808,50** |

**İdarə Heyəti tərəfindən:**

**Sevinc Gülmaliyeva**
**İdarə Heyətinin sədri**

02 mart 2017-ci il
Bakı, Azərbaycan Respublikası

**Gündüz Rzayev**
**Baş mühasib**

02 mart 2017-ci il
Bakı, Azərbaycan Respublikası

**"Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyətinin**
**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**
31 dekabr 2016-cı il tarixində başa çatmış il üzrə
*(Azərbaycan manatı ilə)*

| | Qeyd | 31.12.2016 | 31.12.2015 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | | | |
| Birbaşa sığorta üzrə sığorta haqqları | | 20 154 078,68 | 17 770 521,19 |
| Təkrarsığortaya qəbul edilmiş təkrarsığorta haqları | | 120 276,73 | 150 035,01 |
| Sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | | 1 175 682,83 | 69 354,74 |
| Təkrarsığortaya verilmiş müqavilələr üzrə komisyon muzdlar | | 312 923,69 | 165 376,87 |
| Alınmış faizlər | | 1 692 325,17 | 1 655 930,64 |
| Subroqasiya gəlirləri | | 87 695,49 | 52 992,80 |
| Sair gəlirlər | | 14 630,96 | 190 726,05 |
| Verilmiş sığorta ödənişləri və sığorta məbləğləri üzrə | | -4 174 388,96 | -2 307 122,76 |
| Qaytarılan sığorta haqqları üzrə | | -182 475,42 | -357 640,14 |
| Təkrarsığortaya verilmiş sığorta haqları üzrə | | -9 860 731,35 | -8 237 925,24 |
| İşlərin aparılması xərcləri | | -3 162 627,60 | -2 481 086,79 |
| Sair xərclər | | -9 707,24 | -145 576,65 |
| Ödənilmiş vergi xərcləri | | -1 526 953,38 | -2 455 139,01 |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat Fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti** | | **4 640 729,60** | **4 070 446,71** |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | | | |
| Ehtiyyatlar: | | -773,30 | 121,93 |
| Debitor borclar | | -1 547 563,23 | 921 164,41 |
| Sair aktivlər | | -36 668,37 | -50 024,34 |
| **Sair kreditor borcları:** | | **-1 191 700,13** | **936 710,55** |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | | **-572 771,60** | **-1 108 533,24** |
| **Əməliyyat fəaliyyəti üzrə sair öhdəliklər** | | **-32 115,38** | **-11 989,41** |
| **əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | | **1 259 137,59** | **4 757 896,61** |
| Binalar və avadanlıqların satılması | | 0,00 | 11 256,94 |
| Binalar və avadanlıqların alınması | | -141 378,02 | -67 835,04 |
| Qeyri-maddi aktivlərin alınması | | -11 281,50 | -51 436,44 |
| Depozit hesabına artma/azalma | | 328 979,50 | -7 768 520,00 |
| Qiymətli kağızlar üzrə artma/azalma | | -2 937 108,98 | 0,00 |
| İnvestisiya fəaliyyəti üzrəsair aktivlərdə artma/azalma | | -3 168 425,01 | |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | | **-5 929 214,01** | **-7 768 534,54** |
| **Maliyyələşdirmə fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | | | |
| Ödənilmiş dividend | | -1 962 000,00 | -243 000,00 |
| Mənfəətdən istifadə | | -95 810,86 | -2 572 312,35 |
| Qaytarıla bilən iştirakçı kapitalında artma | | | 2 500 000,00 |
| **Maliyyələşdirmə fəaliyyətində yaranan xalis pul vəsaitləri** | | **-2 057 810,86** | **-315 312,35** |
| Məzənnə dəyişiklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | 2 974 251,65 | 6 571 938,78 |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma (azalma)** | | **-3 753 635,63** | **3 137 988,50** |
| **İlin əvvəlində pul vəsaitləri və onların ekvivalentləri** | | **4 610 222,71** | **1 472 234,21** |
| **Ilin sonunda pul vəsaitləri və onların ekvivalentləri** | | **856 587,08** | **4 610 222,71** |

**İdarə Heyəti tərəfindən:**

**Sevinc Gülməliyeva**
**İdarə Heyətinin sədri**
02 mart 2017-ci il
Bakı, Azərbaycan Respublikası

**Gündüz Rzayev**
**Baş mühasib**
02 mart 2017-ci il
Bakı, Azərbaycan Respublikası

## GİRİŞ

Mən, Smart Audit MMC-nin direktoru, auditor Emil Nizami oğlu Məmmədov (Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən 16 yanvar 2015-ci il tarixdə verilmiş AT/115 qeydiyyat saylı 080834 № li lisenziya) ilə "Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyəti arasında 5 yanvar 2017-ci il tarixli 007AA01 saylı bağlanmış müqaviləyə əsasən "Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyətinin 2016-cı il üzrə Balans hesabatının, bu tarixdə bitən il üzrə müvafiq Mənfəət və zərər, Pul vəsaitlərinin hərəkəti və İştirakçı kapitalında dəyəşikliklər hesabatlarının auditini apardım.

## 1. CƏMİYYƏT HAQQINDA MƏLUMAT

Cəmiyyət Azərbaycan Respublikası Vergilər Nazirliyinin Bakı şəhəri Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində 1400143091 saylı VÖEN ilə qeydiyyatda olmuşdur. Cəmiyyət Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən 26.02.2007-ci il tarixdə verilmiş 018913 saylı, 19.10.2010-cu il tarixdə verilmiş 000369 saylı müddətli və 14.03.2012-ci il tarixdə verilmiş 000587 saylı müddətsiz lisenziyalara müvafiq fəaliyyət göstərmişdir.
Cəmiyyətin hüquqi ünvanı: Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Racəbli küçəsi 19.

31.12.2016-cı il tarixə cəmiyyətin aşağıdakı nümayəndəlik və filialları olmuşdur:
"Meqa Sığorta" ASC-nin Mingəçevir nümayəndəliyi (1400143091-27002)
"Meqa Sığorta" ASC-nin "Şimal" filialı (1400143091-45001)
"Meqa Sığorta" ASC-nin "Mərkəz" filialı (1400143091-17001)
"Meqa Sığorta" ASC-nin "Cənub" filialı (1400143091-37001)
"Meqa Sığorta" ASC-nin Ağsu filialı (1400143091-35001)
"Meqa Sığorta" ASC-nin Sumqayıt filialı (1400143091-29001)
"Meqa Sığorta" ASC-nin Gəncə filialı (1400143091-23001)
"Meqa Sığorta" ASC-nin Zaqatala filialı (1400143091-51001)
"Meqa Sığorta" ASC-nin Xaçmaz filialı (1400143091-77001)

Cəmiyyətin nizamnamə kapitalı onun təsisçilərinin səhmlərinin nominal dəyəri hesabına formalaşdırılır. 31.12.2016-cı il tarixə cəmiyyətin nizamnamə kapitalı 14 500 000,00 (On dörd milyon beş yüz min) manat həcmindədir və hər birinin nominal dəyəri 5000,00 (beş min) manat olmaqla 2900 (iki min doqquz yüz) ədəd adi, adlı, sənədsiz səhmdən ibarətdir.
31 dekabr 2016-cı il tarixinə və 31 dekabr 2015-ci il tarixinə Cəmiyyətin nizamnamə kapitalında hər bir səhmdarın payı aşağıdakı kimi olmuşdur:

| **Səhmdarlar** | **31.12.2016** | **31.12.2015** |
|---|---|---|
| Quliyev Zaur Zakir oğlu | **2 755 000,00 (19%)** | **2 755 000,00 (19%)** |
| İsmayılova Nəzakət Zakir qızı | **2 755 000,00 (19%)** | **2 755 000,00 (19%)** |
| Əliyev Rauf Zeynal oğlu | **2 755 000,00 (19%)** | **2 755 000,00 (19%)** |
| Qurbanov Yaşar Feyzi oğlu | **2 175 000,00 (15%)** | **2 175 000,00 (15%)** |
| İsmayılov Eldar Əli oğlu | **1 305 000,00 (9%)** | **1 305 000,00 (9%)** |
| Əliyev Zeynal Hacıməmməd oğlu | **2 755 000,00 (19%)** | **2 755 000,00 (19%)** |
| Cəmi | **14 500 000,00 (100%)** | **14 500 000,00 (100%)** |

Bu maliyyə hesabatları 02 mart 2017-ci il tarixdə İdarə Heyəti tərəfindən təsdiq olunmuşdur.

## 2. ƏMƏLİYYAT MÜHİTİ

Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar maliyyə xidmətləri bazarının da genişlənməsi və inkişafına müsbət təsir göstərir. Müvafiq olaraq yerli qanunvericilik aktları da (vergi, gömrük, sığorta və s.) müxtəlif əlavə və dəyişikliklərə məruz qalır. 25 dekabr 2007-ci il tarixində "Sığorta fəaliyyəti haqqında" yeni qanun qəbul olunmuş və həmin qanunun qüvvəyə minməsi ilə əlaqədar sığorta sahəsində münasibətləri tənzimləyən bir sıra normativ sənədlər (qaydalar) Maliyyə Nazirliyi tərəfindən təsdiq olunmuşdur.

## 3. TƏQDİMATIN ƏSASI

### Təqdimatın əsası

Cəmiyyət mühasibat yazılışlarını Azərbaycanın sığorta və mühasibat uçotu qaydaları əsasında aparır.
Bu maliyyə hesabatları Azərbaycan Respublikasının sığorta və mühasibat qaydaları əsasında hazırlanmış və zəruri düzəlişlər edilmişdir.
Maliyyə hesabatlarının hazırlanmasında hesabat tarixinə aktiv və öhdəliklərin qeyd olunmuş məbləğlərinə və hesabat dövründə gəlir və xərclərin qeydə alınmış məbləğlərinə təsir edə biləcək hesablamalardan istifadə olunur.

### Əməliyyat valyutası

Təqdim olunan maliyyə hesabatlarında əməliyyat valyutası Azərbaycan Manatıdır ("AZN").

## 4. UÇOT SİYASƏTLƏRİ

Aşağıdakı uçot siyasətləri əsaslı surətdə əhəmiyyətli olan maddələrə müvafiq olaraq müəssisənin maliyyə hesabatlarında tətbiq edilmişdir.

### Uçot metodu

Maliyyə hesabatları ilkin dəyər konsepsiyası əsasında hazırlanmışdır.

### Əsas əməliyyat gəliri

Əsas əməliyyat gəliri hesablama metodu əsasında tanınır və tanınma alıcı ilə müqavilənin bağlandığı andan başlanır.

### Digər gəlirlər

Digər gəlirlər aidiyatı əməliyyatlar başa çatdıqda gəlir hesabının kreditinə yazılır. Əməliyyat xərcləri və digər xərclər adətən mallar alındıqda və ya xidmətlər yerinə yetirildikdə hesablama metodu ilə qeyd olunur.

### Pul vəsaitləri və ekvivalentləri

Pul vəsaitləri – nəğd pul vəsaitləri, bank hesablarında saxlanılan və tələblər üzrə verilən pul vəsaitləridir.

Pul vəsaitlərinin ekvivalentləri - ödəmə müddəti üç ayadək olan, pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin dəyişməsi kimi cüzi riskə məruz qalan qısamüddətli qoyuluşlardır. Pul vəsaitlərinin ekvivalentlərinə hesabat ilinin sonunda xalis pul vəsaitləri və onların ekvivalentlərinə əlavə edilən hər-hansı bank overdraftı da daxildir.

**Banklarda yerləşdirilmiş əmanətlər**

Normal iş fəaliyyətində Şirkət sərbəst pul vəsaitlərini, əmanət müqaviləsi əsasında, müqavilənin şərtlərində nəzərdə tutulan qaydada və müddətdə banklarda əmanətlər formasında saxlayır. Kredit təşkilatlarından alınacaq məbləğlər ilkin tanınma zamanı investisiya edilmiş vəsaitin ədalətli dəyərini əks etdirən dəyər ilə ölçülür.

**Ödəniş tarixinədək saxlanılan investisiyalar**

Ödəniş tarixinədək saxlanılan investisiyalar müəyyənləşdirilən və sabit ödənişli borc qiymətli kağızlardır. Bu cür qiymətli kağızlar ilk olaraq ədalətli dəyər üstəgəl birbaşa əməliyyat xərcləri məbləğində tanınır.

**Alınacaq vəsaitlər və qabaqcadan ödəmələr**

Alınacaq vəsaitlər sığortalanan şəxslərdən alınacaq birbaşa sığorta haqlarından, təkrarsığortaya qəbul edilmiş risklər üzrə təkrarsığortalılardan alınanaq təkrarsığorta haqlarından və digər vəsaitlərdən ibarətdir. Təkrarsığorta üzrə debitor və kreditorlar bunun üçün hüquqi əsas olduqda əvəzləşdirilir. Alınacaq vəsaitlər sığorta müqaviləsi bağlandığı tarixdə qeydə alınır və həmin tarixdə müvafiq olaraq gəlir hesabına yazılır. Qabaqcadan ödəmələr ödəmə tarixində qeydə alınır və xidmətlər yerinə yetirildikdə mənfəət və zərər hesabatına daxil edilir.

**Torpaq, tikili, avadanlıq və amortizasiya**

Aktiv kimi tanına bilən torpaq, tikili və avadanlıq obyekti əldə olunan zaman ilkin dəyəri əsasında tanınır. "İlkin dəyər" ödənilmiş pul və ya pul ekvivalentlərinin məbləğinə və ya ödənilmiş hər hansı digər əvəzləşdirmənin ədalətli dəyərinə bərabərdir. Əsas vəsaitlər yığılmış köhnəlmə və hər hansı qiymətdən düşmə zərəri çıxılmaqla ilkin dəyərlə tanınır ("ilkin dəyər modeli"). Torpaq istisna olmaqla əsas vəsaitlərin köhnəlməsi "azalan qalıq metodu" əsasında aktivlərin illik köhnəlmə dərəcələrini istifadə etməklə hesablanır:

| | |
|---|---|
| Maşın və avadanlıqlar | 25% |
| Nəqliyyat vasitələri | 25% |
| Qeyri maddi aktivlər | 10% |
| Digər əsas vəsaitlər | 20% |

Hər bir maliyyə ilinin sonunda aktivlərin qiymətdən düşmə zərərini müəyyən etmək üçün ilkin dəyərə əsaslanan balans dəyəri ilə bərpa oluna bilən dəyəri müqaisə edilir. Əgər balans dəyəri bərpa oluna bilən dəyərdən əhəmiyyətli dərəcədə artıq olarsa, bu iki dəyər arasındakı fərq mənfəət və zərər haqqında hesabatda xərc kimi göstərilməklə balans dəyəri bərpa oluna bilən dəyərə qədər silinir.

**Qeyri-maddi aktivlər və amortizasiya**

Qeyri- maddi aktiv aşağıdakı meyarlara cavab verdikdə tanınır:

- Bu aktiv fiziki formaya malik olmayan qeyri-monetar aktiv olmalıdır;
- Ayrıca tanına bilməlidir;
- Müəssisə aktiv üzərində nəzarət imkanına malik olmalıdır;
- Gələcəkdə iqtisadi səmərələr yaratmalıdır;
- Gələcəkdə iqtisadi səmərələrin müəssisəyə daxilolacağı ehtimalı olmalıdır;

- Aktivin dəyəri etibarlı qiymətləndirilməlidir.

Bu meyarlardan hər-hansı yerinə yetrilmədikdə xərclər qeyri-maddi aktiv kimi deyil, onların yarandığı dövrün xərclər kimi tanınır. Qeyri-maddi aktivlərin tanınması onların ilkin dəyəri əsasında aparılır. Cəmiyyət ilkin tanınmadan sonra qeyri-maddi aktivi amortizasiya çıxılmaqla ilkin dəyər ilə uçota alır ("İlkin dəyər modeli"). Qeyd etmək lazımdır ki, faydalı istifadə müddətinə malik qeyri-maddi aktivlər amortizasiya oluna bilərlər, faydalı istifadə müddətləri qeyri-müəyyən olan qeyri-maddi aktivlərə amortizasiyanı "düz xətt metodu" ilə hesablayır. Bundan əlavə, balans dəyəri təyin edilmiş ədalətli dəyərlə müqaisə edilməli və ədalətli dəyər balans dəyərindən əhəmiyyətli dərəcədə aşağı olduqda, balans dəyərindən qiymətdən düşmə zərəri çıxılmalıdır. Aktiv qiymətdən düşmüş olduqda, ona amortizasiyanın standart qaydalarının tətbiq edilməsi davam etdirməlidir.

**Ehtiyatlar**

Ehtiyatlar ilkin dəyər və ehtimal edilən satış dəyərindən daha az olan dəyərlə qiymətləndirilirlər.

**Vergilər**

Vergilərin məbləği balans tarixinə qüvvədə olan vergi qanunvericiliyinə uyğun olaraq hesablanır.

**Mənfəət vergisi**

Mənfəət vergisi xərcləri cari vergilərdən və təxirə salınmış vergilər üzrə xərclərdən ibarətdir.

**Cari mənfəət vergisi** – balans hesabatı tarixinə qüvvədə olan vergi dərəcələrini istifadə etməklə dövr üzrə gözlənilən vergiyə cəlb olunan mənfəət əsasında hesablanır. Hesabatdakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə (müvəqqəti fərqlər) və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə (daimi fərqlər) vergi mənfəəti hesabatdakı mənfəətdən fərqlənir.
**Təxirə salınmış mənfəət vergisi** – cari və keçmiş dövlərin maliyyə hesabatlarında tanınan əməliyyat və hadisələrin qiymətləndirilmiş gələcək vergi nəticələridir. Təxirə salınmış vergi elə mühasibat qeydidir ki, müvəqqəti fərqlər üzrə nəticələnə biləcək uçot mənfəəti və vergi mənfəəti arasında mövcud olan əlaqə ilə bağlı istənilən təhrifin aradan qaldırılmasını təsvir edir. Təxirə salınmış vergi öhdəlikləri – vergi tutulan müvəqqəti fərqlər ilə əlaqədar gələcəkdə ödənilməli olan mənfəət vergisinin məbləğidir. Vergi tutulan müvəqqəti fərqlərin mövcud olduğu yerlərdə vergi xərci nəzərdə tutulan gələcək vergi xərci vasitəsilə artırılır və öhdəlik kimi mühasibat balansında tanınır. **Təxirə salınmış vergi öhdəlikləri** – çıxılan müvəqqəti fərqlərin nəticəsi kimi yaranan və gələcək dövrlərdə əvəzi alınmalı olan mənfəət vergisi məbləğləridir.

**Təxirə salınmış vergi aktivləri və öhdəliklərinin qiymətləndirilməsi** – aktivin realizasiya olunacağı və ya öhdəliyin yerinə yetiriləcəyi dövrə tətbiq edilməsi gözlənilən balans hesabatı tarixinə qüvvədə olan vergi dərəcələri əsasında qiymətləndirilməlidir. Lakin balans hesabatı tarixinə hökumət gələcək illərdə vergi dərəcəsini dəyişəcək qanunvericilik aktlarını qəbul edərsə, bu zaman gələcəkdə qüvvədə olacaq dərəcə istifadə olunmalıdır.
Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa mənfəət və ya zərər hesabatında əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər səhmdar kapitalında öz əksini tapır.

**İnvestisiyalar**

Digər müəssisələrin qiymətli kağızlarına və aktivlərinə qısamüddətli və uzunmüddətli investisiyalar ilkin dəyər və ehtimal edilən satış dəyərindən daha az olan dəyərlə tanınır.

**Ödəniş tarixinədək saxlanılan investisiyalar**

Adətən aşağıdakı beş meyyara uyğun olduğu zaman investisiyalar "ödəniş müddətinə qədər saxlanan investisiyalar" kimi təsnifləşdirilir:

- Qeyri-törəmə aktivlərdir;

- Sabit və ya müəyyənləşdirilə bilən ödənişlərdir;
- Sabit ödəmə müddətinə malik olmalıdırlar;
- Müəssisənin aktivləri ödəniş müddətinə qədər saxlamaq üzrə kəskin niyyəti vardır;
- Müəssisənin aktivləri ödəniş müddətinə qədər saxlamaq üçün maliyyə imkanına malikdir.

**Qiymətləndirilmiş öhdəliklər**

Gələcəkdə yaranacaq öhdəlik ehtimal edildikdə, bu ehtimal yarandığı andan bəri qeyd edilmiş öhdəlik qiymətləndirilmiş öhdəlik kimi tanınır.

**Sığorta əməliyyatları**

**Sığorta haqqı** – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta qanunvericiliyinə uyğun olaraq, sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir:

**Baza sığorta haqqı** – sığorta müqaviləsi üzrə hesablanmış sığorta haqqından həmin müqavilənin bağlanması üzrə göstərilən vasitəçilik xidməti üçün komisyon muzdu (hesablanmış sığorta haqqının 15%-dən çox olmamaqla) çıxıldıqdan sonra qalan məbləğidir.

**Qazanılmamış sığorta haqqı** – sığorta haqqının sığorta təminatının qüvvədə olan müddətinin hesablama tarixindən sonrakı dövrünə aid olan hissəsidir.
**Qazanılmış məcmu sığorta haqqı** – hesabat dövrü ərzində bağlanmış sığorta (təkrarsığorta) müqavilələri üzrə hesablanmış məcmu baza sığorta haqlarının və hesabat dövrünün əvvəlinə qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsinin cəmindən həmin dövrün sonuna qazanılmamış sığorta haqları ehtiyatının baza hissəsini çıxdıqdan sonra qalan məbləğdir.
**Sığorta ödənişi** – Sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyasıdır.

**Sığorta ehtiyatları**

**Qazanılmamış sığorta haqları ehtiyatı** – sığorta haqqının sığorta təminatının qüvvədə olma müddətinin hesablama tarixindən sonrakı dövrünə aid olan hissəsidir.
**Zərərlər ehtiyatı** – yekun zərərlər üçün hesablamaları əks etdirir. Zərərlər ehtiyatına bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı (BTZE) və baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatı (BVBZE) daxildir. Bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı - baş verməsi haqqında qanunla və ya sığorta və ya təkrarsığorta müqaviləsi ilə müəyyən olunmuş qaydada hesabat tarixinə qədər sığortaçıya bildirilmiş, lakin sığorta ödənişləri verilməmiş, yaxud tam verilməmiş sığorta hadisələri üzrə sığorta ödənişlərinin verilməsi ilə bağlı sığortaçının öhdəliyidir.
Baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatı - baş verməsi haqqında qanunla və ya sığorta (təkrarsığorta) müqaviləsi ilə müəyyən olunmuş qaydada hesabat tarixinə qədər sığortaçıya bildirilməmiş, sığorta hadisələri üzrə sığorta ödənişlərinin verilməsi ilə bağlı sığortaçının (təkrarsığortaçının) öhdəliyidir.

**Təkrarsığorta**

Təkrarsığorta sığortaçının sığorta müqaviləsi üzrə sığortaladığı və ya təkrarsığortaladığı risklərin bütövlükdə, yaxud bir hissəsinin sığorta qanunvericiliyində nəzərdə tutulmuş qaydada təkrarsığortaçı ilə bölüşdürülməsi və ya təkrarsığortaçıya ötürülməsidir. Cəmiyyət biznesin normal gedişində təkrarsığorta üzrə riskləri digər şirkətə verir. Lakin, risk və təkrarsığortanın digər tərəfə verildiyi təkrarsığorta müqavilələri Cəmiyyətin sığortalanan şəxslər qarşısındakı öhdəliklərdən azad etmir. Aktivdə təkrarsığortaya ötürülmüş müqavilələr üzrə baş vermiş zərərlərdə təkrarsığortaçılardan alınacaq debitor borcları və təkrarsığortaya qəbul edilmiş risklər üzrə təkrarsığortalılardan alınacaq təkrarsığorta haqları əks olunur.Passivdə təkrarsığortaya ötürülmüş risklər üzrə təkrarsığortaçılara ödəniləcək təkrarsığorta haqları öhdəliyi və təkrarsığortaya qəbul edilmiş müqavilələr üzrə baş vermiş zərərdə təkrarsığortaçının öhdəliyi əks olunur.

**Xalis əldə etmə gəlirləri**

Cəmiyyət təkrarsığortaya qəbul edilmiş risklər üzrə təkrarsığortalılara komissiyalar ödəyir və təkrarsığortaya ötürülən risklər üzrə isə təkrarsığortaçılardan komissiyalar alır. Bu növ, komissiya mənfəət və zərər haqqında hesabatda sığorta fəaliyyəti bölməsində qeydə alınır.

**Sığorta fəaliyyəti ilə bağlı olmayan xidmətlər**

Sığorta fəaliyyəti ilə bağlı olmayan xidmətlər birbaşa balans hesablarında qeyd edilir və riskin köçrülmədiyi əməliyyatları əks etdirir.

**Xarici valyuta əməliyyatı**

Cəmiyyətin əməliyyat valyutası manatdır. Xarici valyutada olan monetar maddələr (kassa qalığı, hesab qalığı, debitor, kreditor borclar, öhdəliklər və s.) Cəmiyyətin balans hesabatının bağlandığı tarixə (31 dekabr) olan valyuta məzənnəsindən istifadə etməklə hesabat verdiyi valyutaya dəyişilir. Xarici valyutada olan maya dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr tanınmış maya dəyəri nəticəsində ilkin əməliyyatın aparıldığı zaman mövcud olan valyuta məzənnəsi istifadə olmaqla çevrilir. Xarici valyutada olan ədalətli dəyər ilə qiymətləndirilən (və ya yenidən qiymətləndirilmiş) qeyri-monetar maddələr ədalətli dəyər müəyyən edilən (və ya yenidən qiymətləndirmə aparılan) günə olan valyuta məzənnəsi istifadə olunmaqla çevrilir.

Xarici valyuta ilə ifadə olunmuş monetar maddələr ilə əlaqədar yaranan məzənnə fərqləri mənfəət və zərər haqqında hesabat vasitəsilə mühasibat uçotuna daxil edilir. Qeyri-monetar maddələrlə bağlı digər mənfəət və ya zərərin mənfəət və zərər haqqında hesabat vasitəsi ilə tanındığı hallarda yaranan məzənnə fərqləri də həmçinin bu hesabatlara daxil edilir. Mənfəət və ya zərərlər kapital vasitəsilə tanındığı hallarda müvafiq olaraq, məzənnə fərqləri də həmçinin kapital vasitəsilə tanınır.

Xarici valyuta balansında istifadə olunan əsas dərəcədə Azərbaycan Respublikası Mərkəzi Bankının ("ARMB") rəsmi məzənnələri əsasında aşağıda göstərilir:

| | **31.12.2016** |
|---|---|
| 1ABŞ dolları/AZN | 1,7707 |
| 1Avro/AZN | 1,8644 |

**Əvəzləşdirmə**

Maliyyə aktivləri və öhdəlikləri yalnız o zaman əvəzləşdirilir ki, qarşılıqlı əvəzləşdirmənin həyata keçirilməsi üçün qanuni hüquq mövcud olmalı, iki alətin qarşılıqlı əvəzləşdirilməsi niyyəti və hər iki müqavilənin eyni zamanda realaşdırılması niyyəti olsun

**İşçi heyəti ilə bağlı xərclər və aidiyyatı ayırmalar**

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq Cəmiyyət işçilərin əmək haqlarından məcburi sosial sığorta haqları tutur və onları Dövlət Sosial Müdafiə Fonduna köçürür. Bundan əlavə bu tip təqaüd sistemi işəgötürən tərəfindən işçilərin əmək haqqı fondunun müəyyən faizi kimi Dövlət Sosial Müdafiə Fonduna məcburi sosial sığorta haqları ayırmalarını nəzərdə tutur. Təqaüdə çıxıldıqda təqaüdlə bağlı bütün ödənişlər Dövlət Sosial Müdafiə Fondu tərəfindən yerinə yetirilir. Cəmiyyət Dövlət Sosial Müdafiə Fondunun qaydalarından əlavə ümumi əmək haqqı ödənişlərinin faizi kimi hesablanmış işçilər tərəfindən cari yardımları tələb edən pensiya ilə bağlı hər hansı fərdi qaydalara malik deyildir. Bundan başqa, Cəmiyyətdə hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

**Səhmdar kapitalı**

Səhmdar kapitalı ilkin dəyər ilə tanınır. Səhmdarların pulu vəsait şəklində deyil, aktiv və ya başqa formada kapitala əlavələr etdikdə onların dəyəri əməliyyatın aparıldığı tarixə ədalətli dəyər ilə qeydə alınır.

## 5. GƏLİR XƏRCLƏRİN TƏHLİLİ

31 dekabr 2016-cı il və 31 dekabr 2015-ci il tarixlərinə **sığorta fəaliyyəti** üzrə gəlir və xərclər aşağıdakı kimi olmuşdur:

| | 31.12.2016 | 31.12.2015 |
|---|---|---|
| **Əsas əməliyyat gəlirləri** | 21 762 961,93 | 18 155 287,81 |
| Birbaşa sığorta üzrə sığorta haqqları | 20 154 078,68 | 17 770 521,19 |
| Təkrarsığorta üzrə təkrarsığorta haqları | 120 276,73 | 150 035,01 |
| Sığorta ödənişlərində təkrarsığortaçıların payı | 1 175 682,83 | 69 354,74 |
| Təkrarsığortaya verilmiş müqavilələr üzrə komisyon muzdlar | 312 923,69 | 165 376,87 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi** | **-1 379 981,44** | **-719 875,11** |
| **İnvestisiya gəlirləri** | **1 692 325,17** | **1 655 930,64** |
| **Subroqasiya gəlirləri** | **87 695,49** | **52 992,80** |
| **Sair gəlirlər** | **2 988 882,61** | **6 762 664,83** |
| **CƏMİ GƏLİRLƏR** | **25 151 883,76** | **25 907 000,97** |
| **Əsas əməliyyat xərcləri** | **14 217 595,73** | **10 902 688,14** |
| Verilmiş sığorta ödənişləri və sığorta məbləğləri | 4 174 388,96 | 2 307 122,76 |
| Qaytarılan sığorta haqları | 182 475,42 | 357 640,14 |
| Tənzimləmə xərcləri | | |
| Təkrarsığortaya verilmiş sığorta haqları | 9 860 731,35 | 8 237 925,24 |
| Qarşısıalınma tədbirləri fonduna ayırmalar | 0,00 | 0,00 |
| Sığorta fəaliyyəti üzrə sair xərclər | | |
| **İşlərin aparılması xərcləri** | **3 289 813,88** | **2 583 041,15** |
| **Sair xərclər** | **9 707,24** | **145 576,65** |
| **CƏMİ XƏRCLƏR** | **17 517 116,85** | **13 631 305,94** |
| **MALİYYƏ MƏNFƏƏTİ** | **7 634 766,91** | **12 275 695,03** |
| **Mənfəət vergisi xərci** | **1 526 953,38** | **2 455 139,01** |
| **Təxirə salınmış mənfəət vergisi xərci (gəliri)** | | |
| **HESABAT DÖVRÜNDƏ XALİS MƏNFƏƏT** | **6 107 813,53** | **9 820 556,02** |

## 6. SIĞORTA EHTİYATLARI

31 dekabr 2016-cı il tarixində başa çatmış il üzrə qeyri-həyat sığorta üzrə ehtiyatları 11511753,50 manat məbləğində olmuşdur.

7. Nəticə və təkliflər

1. Azərbaycan Respublikası Vergi Məcəlləsində edilmiş dəyişikliklərə diqqət artırılsın.
   Hesabat 2 (iki) nüsxədən ibarət tərtib edildi. Bunların bir nüsxəsi auditorda, digəri sifarişçidə qalmışdır.

SMART AUDİT MMC
Direktoru (Auditor) E.N.Məmmədov

Maliyyə hesabatları təsdiq olundu:

İdarə Heyəti tərəfindən:

**Sevinc Gülmaliyeva**
**İdarə Heyətinin sədri**

2 mart 2017-ci il
Bakı, Azərbaycan Respublikası

**Gündüz Rzayev**
**Baş mühasib**

2 mart 2017-ci il
Bakı, Azərbaycan Respublikası